AZƏRBAYCAN XƏBƏRLƏRİ

Azərbaycanda milli dirçəlişin 38-ci ili

Noyabr 17, 2026



Bakıda Lenin meydanında mitinq. 1989

Noyabrın 17-si Azərbaycanda Milli Dirçəliş Günüdür.

38 il öncə – 1988-ci il noyabrın 17-də Bakının Lenin, indiki Azadlıq meydanında Azərbaycana qarşı ərazi iddialarına və SSRİ rəhbərliyinin bu məsələdəki mövqeyinə etiraz olaraq mitinqlər başlayıb. Nümayişçilər mərkəzi hakimiyyəti bu iddiaların qarşısını almamaqda günahlandırırdılar.

O dövrün şahidlərinin sözlərinə görə, Sovet rəhbərliyinin məsələyə şübhəli şəkildə biganə yanaşması insanları daha da hiddətləndirib və qısa vaxt ərzində yüz minlərlə vətəndaş hərəkata qoşulub.

Fasiləsiz mitinqlər dekabrın 5-dək davam edib və həmin gün sovet ordusunun müdaxiləsi ilə zorakılıqla dağıdılıb.

1992-ci ildə noyabrın 17-si bayramlar sırasına daxil edilib və qeyri-iş günü elan olunub.

Bundan bir il əvvəl – 1991-ci ildə isə Azərbaycanda Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edilmişdi.

Milli Dirçəliş Günü bu gün də dövlət səviyyəsində keçirilsə də, 2006-cı ilin dekabrında qanunvericiliyə edilən dəyişikliklərdən sonra artıq qeyri-iş günü deyil.



AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur